# Çovdar çörəyi



**Tariyel ABBASLI,**
*filologiya üzrə fəlsəfə doktoru*

Qarşımda bir kitab var: Əlibala Məhərrəmzadə "Çovdar çörəyi". Adından və kitabın ümumi görünüşündən Nəriman Həsənzadənin "Nabat xalanın çörəyi" povestinə oxşatdım. Kitabın müəllifini də tanımırdım. Bir yaxın tanışım mənə hədiyyə etmişdi. Kitabı vərəqləyib yavaş-yavaş oxumağa başladım. Artıq elə bir vəziyyətə çatmışdım ki, cavanlığımda bəzi kitabları oxuduğum kimi onu birnəfəsə oxuyub başa çatdırdım. Roman gərgin dramatik süjet xəttinə malik və son illərdə oxuduğum ailə-məişət mövzusunda qələmə alınmış kəskin psixoloji bir əsərdir. Kitabın üz qabağında yazılmış - ata faciəvi şəkildə dünyasını dəyişmiş oğlunun ölümündə müqəssir tapmağa çalışır. Və oğlu barədə dəhşətli həqiqətlərlə üzüzə gəlir... Nədir o həqiqətlər?

Əsərin baş qəhrəmanı Dadaş müəllim Azərbaycanın nazirliklərindən birində - lap elə nazir müavini vəzifəsində çalışır. Nazirliyin adı olmasa da, əsərin gedişində oxucu bunun hansı nazirlik olduğunu da başa düşür.

Dadaş müəllim yayın cırhacırında məzuniyyət götürüb Türkiyəyə - Bodrum şəhərinə istirahətə gedib beş-on gün istirahət edərək yayın dadını çıxarmağa yollanır. İstirahətin dördüncü günü ona qardaşı telefon vasitəsi ilə dəhşətli bir xəbər verir. 24 yaşında oğlu Cəlil avtomobil qəzasında həlak olub. Bu dəhşətli xəbərdən özünə gələ bilməyən nazir müavini cəmi bir neçə saat ərzində özünü Bakıya yetirir. Mərhumu dəfn edib bir neçə gün başlağlıqların qəbul edən Dadaş müəllim oğlunun ölüm səbəblərini araşdırmağa başlayarkən bir az öncə qeyd etdiyimiz dəhşətli həqiqətlərlə rastlaşır. Sağlığında ali hüquq təhsilli, hər iki-üç aydan bir kifayət qədər bahalı xarici maşınlarını bir başqasına dəyişən Cəlillə bir kəlmə kəsməyən, onunla maraqlanmayan ata indi oğlunun xarakterini, dostlarını, kimlərlə dostluq etdiyini axtarmağa başlayır. Elə ona görə də ölümündən yarım saat əvvəl onunla telefonla danışanların telefon nömrələrini çıxartdırır. Həmin adamları çox çətinliklə də olsa, müxtəlif məqamlarda tapır, onlarla söhbət edir. Həmin müddət ərzində Cəlilə 7 zəng gəlmişdi. Hər dəfə bir zəng sahibini tapdıqca bax oğlumun qəzaya düşməsinə bu zəng səbəb olub, - deyir. Bütün bu araşdırmalar boyu Dadaş müəllim dərin psixoloji sarsıntılar keçirir. Bu sarsıntılar atanı öz övladından ayrı salan vəzifə karyerasını lənətləməsidir. Dadaş müəllim dərin daxili sarsıntılarında hələlik özünü qınamasa da, qaranlıq şəkildə ciyərparasını yada salır. Burada müəllifin ustalığı qəhrəmanın öz dili ilə baş vermiş hadisələri ağır bir kədərlə yada salmasıdır. Araşdırmalar içərisində daxilindən bu etiraflar gəlir: "Lənətə gəlmiş vəzifəsi. Bu vəzifəyə təyin olunandan uşaqlaırndan uzaq düşdü. Həftənin altı günü işləməsi azmış kimi, üstəlik ölkə rayonlarına, xarici ölkələrə ezamiyyətlər onu büsbütün ailəsindən ayırdı. Kaş tutub saxlaya biləydi keçmişini. Lap hamısı o yana. O ki, bir-iki ay əvvəl dəhlizdə Cəlillə üzləşmişdi, o ki, Cəlil "Ata, səninlə söhbət etmək istəyirəm" - demişdi. Kaş həmin gün geri qayıdaydı, tələsdiyi üçün dili quruyub, "Qalsın başqa vaxta" deməzdi, sevimli oğlu ilə üzbəüz oturub mehribanlıqla onun başını sığallayar, alnından öpər, onu səbrlə dinləyərdi". (səh-21).

Və bundan sonra Dadaş müəllim axırıncı dəfə oğluyla nə vaxt görüşdüyünü, danışdığını xatırlaya bilmir. Amma di gəl ki, oğulları Cəlil və Nail atalarının hesabına zəngin həyat tərzi, "atasının gül balaları" kimi yüngül həyat tərzi keçrirlər. Hərəsinin altında isə biri ağ, biri qara, ikisi də 444 nömrə nişanlı "Porşe" avtomobili. Bu günümüzün reallığı. Mühüm dövlət qulluğunda çalışan milyonları pul hesab etməyən, özü də müəyyən məqamlarda özü demişkən "dişini dəyişən" dövlət məmurunun oğlu da elə belə olmalıydı. Bahalı maşın altında şəhərin küçələrində saatda 130-140 km sürətlə gedən məmur balası yolda hansısa bir kimsəsizi də maşınla vuracaq (necə ki, elə vurmuşdu), qumar da oynayacaq, başqasından "atam səni nazirlikdə işə düzəldəcək" deyib 45 min dollar pul da alacaq, lap elə narkomaniyaya da qurşanacaq. Bax Cəlilin həyat tərzi budur. Kimdir müqəssir? Hələlik bu suallar cavabsızdır.

Əslində, buradakı personajlar arasında o qədər də geniş dialoqlar, söhbətlər yoxdur. Bu söhbət və dialoqlar həmin adamlarla görüşən araşdırıcının - yəni Dadaş müəllimin, daxili-mənəvi-psixoloji durumlarında üzə çıxır. Cəlil səhər saat 10-a işləmiş evdən çıxıb anası üçün çovdar çörəyi almağa yollanır. Əsil hadisələr də bundan sonra başlanır. Çörək alıb evə gətirə bilməyən Cəlilin saat 11-də avtomobil qəzasında həlak olması xəbəri gəlir. Araşdırmaların ilk "qurbanı" Nazlı xanımdır. Cəlilin anası. Atanın fikrinə görə əgər Nazlı çovdar çörəyi istəməsəydi Cəlil evdən çıxmaz və qəzaya da düşməzdi. Deməli, Cəlilin ölümünə dolayısı yolla Nazlı səbəb olub. Bununla kifayətlənməyən Dadaş müəllim digər nömrələrin sahiblərini axtarır, çətinliklə də olsa onların hamısını tapır. İkinci tapdığı 82 yaşında qoca bomj bir kişidir. Onunla söhbətdən məlum olur ki, Cəlil onu avtomobillə vurmuş, kişi ölməmiş, sonra isə onu - yəni, Cəlili polisə verməmək üçün notariusa apararaq onunla müqavilə bağlamışdır ki, ölənə qədər hər həftə kişiyə filan qədər pul verəcək. Kişi Dadaşı görcək sevinir ki, neçə gündür Cəlil yoxdur, yəqin pulu səndən göndərib. Yenə də Dadaş müəllimin daxili-mənəvi sarsıntıları başlayır. Növbəti zəng Dördbarmağın zəngidir. Məşhur qumarbazdır. Dördbarmağa uduzub, indi o zəng edib pulunu istəyir. Növbəti zəng psixoloq Zemfira xanımın zəngidir. Cəlil onunla ana-bala qədər yaxındır. Onun yanına - psixoloqa ona görə gəlir ki, Zemfira xanım onu bu bəladan - narkomaniyadan xilas etsin. Dadaşı yenidən dəhşət bürüyür. O, bu barədə atasına heç nə deyə bilmir. Zemfira xanlm Cəlilin bütün sirlərini bilir, amma onun özünün dediyinə görə bir sirri də var, o da "Qızıl sirr"dir. Araşdırmaçı - Dadaş müəllim bu sirri də öyrənir. Bu sirr də ondan ibarətdir ki, Cəlil nişanlı ola-ola ərə gedib boşanmış, yanında 5 yaşlı oğlan uşağı olan bir qadınla qeyri-rəsmi yaşayır.

Ən nəhayət, Cəlilin uşaqlıq dostu Turalın ardınca İstanbula uçur, bir neçə il öncə onların qız üstündə mübahisəsi düşmüş Cəlil istədiyi qızı onun əlindən çıxarmış, bir az gün keçirdikdən sonra ondan aralanmışdı. Ata elə bilirdi ki, Tural Bakıda olarkən pul gücünə Cəlili məhv elətdirmişdi. Turalla söhbətdə isə tamam başqa mənzərə ortaya çıxır. Əgər qənaəti düz çıxarsa, Turalı öldürmək üçün killer axtaran Dadaş müəllim sonda yanıldığını hiss edir. Elə həmin gün kor-peşman geri qayıdır. Bəs kimdir müqəssir? Bunlardan əvvəl isə bir taksi şoferinin dediyi baxıcı Sona arvadın yanına getmiş (məmurlarda belə şeylər olur), sonra arvad ona çox mətləblərdən danışmış və Cəlilin ölümünə bais olan adamı da adını göstərmədən demişdi. "Növbəti iki karta baxıb Sona arvad əlavə elədi ki, onu o yola zorla çəkib aparan yaxın adamıdır, çox yaxın adamıdır özü də.

Nə?!

Yaxın adamı?!

Özü də çox yaxın?!" (səh- 170).

İndi hər şey gün kimi aydın idi Dadaş müəllimə. O yaxın adam, özü də çox yaxın adam Dadaş müəllim özüdür. Bütün ittihamlar ona düşür. Həyat yoldaşı Nazlıda da az yoxdur. Cəlilin bir sıra (narkomaniyanı bilmirmiş) işlərini ört-basdır edib.

Bu neçə ildə başı xidməti işə, eyş-işrətə qarışan Dadaş müəllim bir dəfə olsun övladları ilə maraqlanmayıb, onların problemlərini çözməyib. Fikirləşib ki, heç bunlara lüzum da yoxdur. Anaları onlarla məşğul olar. İndi fikirləşri ki, bəlkə son ayda Cəlil iki-üç dəfə ona "səninlə söhbətim var" - deyə müraciət edəndə "sonra-sonra" deyib başından eləməyəydi. Bəlkə elə Cəlil o vaxtlar bu ağır problemlərin məngənəsində boğulanda atasından kömək istəyirmiş. Niyə onda mən ona qulaq asmadım? əsər başdan-ayağa belə "bəlkələr" və ritorik suallarla doludur. Bu ritorikanın ünvanı isə dövlət məmurudur - Dadaş müəllimdir. Məsələ burasındadır ki, Dadaş müəllim hər telefon nömrə sahibiylə danışdıqca Cəlilin gizlində qalan bir əməlinin şahidi olur. Bütün bunlar atanın dərin psixoloji sarsıntılar keçirməsinə səbəb olur. Bütün bu araşdırmalar prosesində kiçik oğlu Nail ona bir neçə dəfə yaxınlaşıb "Ata, səninlə söhbətim var" - desə də atası "sonra, sonra" demişdi. İndi o yaxın, özü də "çox yaxın" adamı tapandan sonra təcili Naili tapır, sinəsi yana-yana "oğul nə deyirdin, mənimlə söhbət eləmək istəyirdin" - deyir.

Ədəbiyyat həyatın reallığıdır. Hər bir bədii əsərin istər şeir, istər nəsr yaranma səbəbləri var. Yəqin ki, bu əsər də müəyyən bir həyat həqiqətlərindən qaynaqlanmışdır. Dadaş müəllim müstəqillik dövründə meydana atılmış hansısa bir yaxınının hesabına vəzifəyə gəlmiş, tezliklə varlanmış, özünün dediyi kimi lizinq layihələri yaratmış, eyni zamanda bu günkü məmurlarımızın ümumiləşdirilmiş obrazıdır. Cəlilin çovdar çörəyi almaq istəyərkən getmək istədiyi marketin yolu üzərindəki çayxananı görəndə "bu nə vaxt açılıb?" deyə təəccüblənib, halbuki hər gün o çayxanın yanından xidməti maşınla işə gedirdi. Dəbdəbəli kafe və restoranlara vərdiş etmiş məmur kiçik bir çayxananı necə görsün? Yaxud illərdi erməni işğalında olan torpaqları heç bir vaxt yada salmayan, oğlanlarını nə əsgərliyə, nə də döyüşə göndərməyən atanın övladları da beləcə vətənpərvərlik hisslərindən uzaq olmalıydı.




Əlibala Məhərrəmzadənin "Çovdar çörəyi" zomanı sözün əsil mənasında gözəl bir nəsr əsəridir. Dərin psixoloji məqamlarla müşayiət olunan əsərin maraqlı dili, təsvir və ifadə vasitələri var. Əsərin özü də çox lakonik bir şəkildədir. Məsələn, Dadaş müəllimin İstanbula uçmaq səhnəsi: "Taksi, hava limanı, təyyarə, İstanbula doğru" və belə səhnələr çoxdur əsərdə.

Hesab edirik ki, "Çovdar çörəyi" romanı müasir gənclərimiz və harınlamış məmurlarımız üçün ibrət dərsi ola biləcək bir əsərdir.

***2021***